№ 07-08 (815) 30 aprel 2025-ci il • Qəzet 1991-ci ildən nəşr olunur • www.health.gov.az; • www.tibbqazeti.az

# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi



Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş «İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi»ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI 2



Rezidenturaya qəbul yerləri ali tibb təhsili üzrə məzunların sayına uyğunlaşdırılacaq 2



Parlamentin komitə iclaslarında səhiyyə ilə bağlı bir sıra qanunlara dəyişikliklər müzakirə edilib 3

## Prezident İlham Əliyev: COVID zamanı biz 80-dən artıq ölkəyə maliyyə və humanitar yardım çatdırdıq




Dövlət başçısı qeyd edib: «COVID zamanı biz 80-dən artıq ölkəyə maliyyə və humanitar yardım çatdırdıq. O ölkələrin əksəriyyəti Afrika qitəsində yerləşən ölkələr idi. Biz müxtəlif vasitələrlə təhsil, tibbi proqramlara dəstək veririk». 2



## Birinci vitse-prezident Mehriban Əliyeva Bakıda 1 saylı Körpələr Evində və 1 saylı Uşaq Evi sosial xidmət müəssisəsində olub

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakının Nəsimi rayonunda yerləşən 1 saylı Körpələr Evində və Nizami rayonundakı 1 saylı Uşaq Evi sosial xidmət müəssisəsində oldular.

Səh. 3

## Heydər Əliyev Fondunun vitse-prezidenti Çin Milli İnsan Genomu Mərkəzində olub



Leyla Əliyeva mərkəzin laboratoriyalarına və bioloji nümunələr bankına baxıb. Mərkəzin rəhbərliyi ilə söhbət zamanı Azərbaycanın müvafiq qurumları ilə potensial əməkdaşlıq imkanları, o cümlədən onkoloji xəstəliklər, serebral iflic və digər xəstəliklərin müalicəsi zamanı Genom Mərkəzinin metodlarının tətbiqi məsələsi müzakirə olunub.

Səh. 4




## Teymur Musayev: Türk Dövlətləri Təşkilatı regional əməkdaşlığın dərinləşməsində mühüm rol oynayır

*Azərbaycanın səhiyyə naziri Astanada türk dövlətləri səhiyyə nazirlərinin V iclasında çıxış edib*



5

### Aforizm

*Dünyada xeyir iş görməyən insan əbəs yerə yaşayır.*

*C.Fuller*

# Prezident İlham Əliyev: COVID zamanı biz 80-dən artıq ölkəyə maliyyə və humanitar yardım çatdırdıq



**Biz Afrikada yaşayan dostlarımıza lazım olduğu zaman dəstəyimizi veririk.**

AZƏRTAC xəbər verir ki, bunu Prezident İlham Əliyev ADA Universitetində keçirilən «Yeni dünya nizamına doğru» mövzusunda beynəlxalq forumda çıxışı zamanı bildirib.

Dövlət başçısı qeyd edib: «COVID zamanı biz 80-dən artıq ölkəyə maliyyə və humanitar yardım çatdırdıq. O ölkələrin əksəriyyəti Afrika qitəsində yerləşən ölkələr idi. Biz müxtəlif vasitələrlə təhsil, tibbi proqramlara dəstək veririk».

# Koronavirus xəstələrinə yardım göstərən tibb işçilərinin maaşına əlavənin müddəti uzadılıb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov koronavirus xəstələrinə yardım göstərən tibb işçilərinin əməkhaqqına əlavənin ödənilməsi müddətinin uzadılması ilə bağlı iki Qərar imzalayıb.**

AZƏRTAC xəbər verir ki, birinci sənəd «Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında Qərardır. Bu dəyişikliyə görə, COVID-19-la mübarizə üzrə çalışanların maaşlarına əlavənin müddəti 2025-ci il iyulun 1-dək uzadılıb.

Qəbul edilmiş ikinci sənədə əsasən, «Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilib. Yeni qərara görə, adı çəkilən kateqoriyadan olan tibb işçilərinin əməkhaqlarına əlavələr də 2025-ci il iyulun 1-dək ödəniləcək.




## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş «İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi»ndə dəyişiklik edilməsi haqqında

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, ? 1, maddə 63 (Cild I); 2024, ? 3, maddə 358, ? 9, maddə 1106) ilə təsdiq edilmiş «İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi»ndə aşağıdakı dəyişikliklər edilsin:

**1.** 10.1.1-ci yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 10.1.2-ci, 10.1.3-cü yarımbəndlər ləğv edilsin.

**2.** 10.2-ci bəndə «müraciət üçün» sözlərindən sonra «bu tibbi xidmətlər üzrə tarifin» sözləri əlavə edilsin və həmin bənddə «manat» sözü «faiz həcmində» sözləri ilə əvəz edilsin.

**3.** 11.1-ci bəndə «göstərilən» sözündən sonra «planlı» sözü əlavə edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**
*Bakı şəhəri, 24 aprel 2025-ci il*

## Rezidenturaya qəbul yerləri ali tibb təhsili üzrə məzunların sayına uyğunlaşdırılacaq

**Rezidenturaya qəbul yerlərinin sayının ali tibb təhsili üzrə məzun olan şəxslərin sayına uyğunlaşdırılması istiqamətində işlər aparılır. Bu prosesin həyata keçirilməsində mövcud klinik bazaların imkanları da nəzərə alınır. Bundan başqa, hazırda rezidentura proqramında ailə həkimi ixtisası mövcuddur və bu istiqamətdə kadr hazırlığı davam edir. Eyni zamanda, bölgələrdə ailə həkimi təminatının yaxşılaşdırılması məqsədilə konkret təkliflər hazırlanır.**

AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında «Azərbaycan Respublikasının Əmək Məcəlləsində, «Əhalinin sağlamlığının qorunması haqqında», «Özəl tibb fəaliyyəti haqqında» və «Dərman vasitələri haqqında» qanunlarda dəyişiklik edilməsi barədə» qanun layihəsinin (birinci oxunuş) müzakirəsi çərçivəsində Səhiyyə Nazirliyinin İnsan resursları, elm və təhsil şöbəsi müdirinin müavini Təranə Əhmədova söyləyib.

Nazirlik rəsmisi həmçinin vurğulayıb ki, tibb işçilərinin bölgələr üzrə qeyri-bərabər paylanması problemi mövcuddur və əsas tibbi kadrlar paytaxt Bakıda cəmləşib. Bu vəziyyətin aradan qaldırılması üçün Səhiyyə Nazirliyi tərəfindən bir sıra təkliflər hazırlanmaqdadır. Bu istiqamətdə həyata keçirilən tədbirlər ölkədə tibbi xidmətlərin regional əlçatanlığını artırmağa və səhiyyə sisteminin balanslı inkişafına yönəlib.

# Birinci vitse-prezident Mehriban Əliyeva Bakıda 1 saylı Körpələr Evində və 1 saylı Uşaq Evi sosial xidmət müəssisəsində olub





**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakının Nəsimi rayonunda yerləşən 1 saylı Körpələr Evində və Nizami rayonundakı 1 saylı Uşaq Evi sosial xidmət müəssisəsində olublar.**

AZƏRTAC xəbər verir ki, 1 saylı Körpələr Evində hazırda 3 yaşadək 63 uşaq var. Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mütəmadi surətdə burada olur, körpələrin sağlamlıqları, onların yaşayış şəraiti ilə daim maraqlanır, balacalara xüsusi qayğı ilə yanaşırlar.

Qeyd edək ki, Körpələr Evinin 1930-cu ildə tikilən binasında Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir və yenidənqurma işləri aparılıb. 2015-ci il mayın 10-da Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə Körpələr Evinin açılışı olub.

Daim nəcib təşəbbüsləri ilə seçilən Heydər Əliyev Fondu valideyn himayəsindən məhrum olan uşaqların fiziki və mənəvi cəhətdən sağlam yetişməsinə, onların savadlı olmasına xüsusi diqqətlə yanaşır. Beləliklə, gələcəyimiz olan uşaqlarla bağlı Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətə mühüm töhfələr verir.

Sonra Birinci vitse-prezident Mehriban Əliyeva və Leyla Əliyeva 1 saylı Uşaq Evi sosial xidmət müəssisəsində olublar.

Birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva bu müəssisəni də tez-tez ziyarət edir, bayram günlərində buranın sakinləri ilə görüşür, onları hədiyyələrlə sevindirirlər.

Hazırda 1 saylı Uşaq Evi sosial xidmət müəssisəsində 3 yaşdan 18 yaşadək 100 uşaq var. Onların təhsil alması, idmanla məşğul olması və sağlamlıqlarının təmin edilməsi üçün burada hər cür şərait yaradılıb.

Müəssisənin sakinləri sevimli qonaqları olan birinci xanım Mehriban Əliyeva və Leyla Əliyevanı həmişə şeir, mahnı və ədəbi proqramla qarşılayıblar. Bu dəfə də istisna olmadı.

Heydər Əliyev Fondu yarandığı gündən bu müəssisəni diqqətdə saxlayır, burada yaşayan yeniyetmələrin ali təhsil müəssisələrində oxuması, onların işlə təmin edilməsi, peşə vərdişlərinin aşkara çıxarılması istiqamətində mühüm işlər görür. Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı təmir olunan bu müəssisənin açılışı 2005-ci ildə Azərbaycanın birinci xanımının iştirakı ilə olub. 2017-ci ildə isə buranın iki sakini ailə həyatı qurub. Onların toyu Heydər Əliyev Fondu tərəfindən təşkil edilib, gənclərə mənzil və avtomobil hədiyyə olunub.

# Parlamentin komitə iclaslarında səhiyyə ilə bağlı bir sıra qanunlara dəyişikliklər müzakirə edilib

**Milli Məclisin Səhiyyə komitəsinin keçirilmiş növbəti iclasında komitənin sədri Əhliman Əmiraslanov Əmək Məcəlləsində, «Əhalinin sağlamlığının qorunması haqqında», «Özəl tibb fəaliyyəti haqqında» və «Dərman vasitələri haqqında» qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin birinci oxunuşda müzakirəyə çıxarıldığını bildirib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Səhiyyə Nazirliyinin nümayəndələrinin də iştirak etdiyi iclasda qanun layihəsi barədə danışan Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov sənəddə təklif olunan dəyişiklikləri zəruri edən amillərdən söz açıb, onların əhəmiyyətini diqqətə çatdırıb. Bildirilib ki, dəyişikliklər səhiyyəmizin mühüm sahəsi olan praktik tibb və yaəczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) peşəkarlıq səviyyəsinin yüksəldilməsi və peşə yararlılığının yoxlanılması işinin təkmilləşdirilməsi məqsədi ilə hazırlanıb.

Tibb mütəxəssislərinin peşəkarlığının qiymətləndirilməsinin bəzi aktual məsələlərinə toxunan komitə sədri bu sahədə xidmətlərin keyfiyyətinin və əlçatanlığının artırılması ilə bağlı fikirlərini bölüşüb.

Sonra Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev bildirib ki, beynəlxalq tibb elminin yenilənən inkişafı nəzərə alınmaqla səhiyyə qanunvericiliyinin təkmilləşdirilməsinə xidmət edən layihədə 4 hüquqi akta ümumilikdə 34 dəyişiklik təklif olunur. Qeyd edilib ki, Əmək Məcəlləsinə, «Özəl tibb fəaliyyəti haqqında», «Dərman vasitələri haqqında» qanunlara ediləcək dəyişikliklər «Əhalinin sağlamlığının qorunması haqqında» Qanunda nəzərdə tutulan dəyişikliklərdən qaynaqlanır. Milli Məclisin şöbə müdiri bildirib ki, qanun layihəsi Səhiyyə Nazirliyinin təşəbbüsü ilə hazırlanıb.



O, layihə hazırlanarkən öyrənilən dünya təcrübəsindən söz açıb, qanunvericiliyimizdə ilk dəfə təsbit edilən «Davamlı peşəkar inkişaf (DPİ)» anlayışını, DPİ üzrə minimum kredit ballarının toplanılması mexanizmini şərh edib. A.Vəliyev tibb işçilərinin sertifikasiyası prosesi və qaydalarına təklif olunan yenilikləri və əsas müddəaları təqdim edərkən diqqətə çatdırıb ki, layihəyə əsasən, tibb işçilərinə öz sertifikat şəhadətnamələrini ya 5 ildən bir imtahan yolu ilə, ya da 5 il ərzində 250 kredit balı yığmaqla əldə etməyə şərait yaradılır. Yəni onların peşə bilik və bacarıqlarının qorunub saxlanılması, inkişaf etdirilməsi və peşə yararlılığının yoxlanılması məqsədilə alternativ DPİ mexanizmi tətbiq olunacaq. Bu məqsədlə də Qanunun 46-cı maddəsinin 3-cü hissəsi yeni redaksiyada verilir.

Bundan başqa, layihədə sertifikasiya prosesinin təkmilləşdirilməsi üçün təklif olunan bir sıra prosedur və terminoloji dəqiqləşdirmələr barədə ətraflı məlumat verən Adil Vəliyev vurğulayıb ki, bu layihənin qəbul edilməsi hər zaman insanların sağlamlığının keşiyində duran həkimlərin və tibb işçilərinin davamlı təhsil yolu ilə inkişaf etmələrinə böyük töhfə olacaq.

Qanun layihəsinin müzakirəsində deputatlar Məlahət İbrahimqızı, Soltan Məmmədov, Pərvanə Vəliyeva, İlham Məmmədov, Kamaləddin Qafarov, Müşfiq Məmmədli çıxış ediblər. Çıxışçılar təklif olunan dəyişikliklərin ölkəmizdə tibb mütəxəssislərinin bilik və bacarıqlarının artırılmasını təmin edəcəyinə, nəticədə, əhaliyə keyfiyyətli tibbi xidmətlərin göstərilməsinə mühüm töhfələr verəcəyinə inamlarını ifadə ediblər. Deputatlar sənəddə əks olunan məsələlərlə bağlı fikirlərini bildiriblər, bəzi qeydlərini səsləndiriblər.

Komitə sədri Əhliman Əmiraslanov, Səhiyyə Nazirliyinin İnsan resursları, elm və təhsil şöbəsi müdirinin müavini Təranə Əhmədova qaldırılan məsələlərə aydınlıq gətiriblər.

İclasa yekun vuran komitə sədri Əhliman Əmiraslanov layihədə nəzərdə tutulan və mütərəqqi müddəalarla zəngin olan tənzimlənmələrin tibb mütəxəssislərinin peşəkar inkişafını stimullaşdırdığını, onların peşəkarlığının yüksəldilməsinə və beynəlxalq peşəkar mühitə inteqrasiyasına hüquqi zəmin yaratdığını vurğulayıb.

Sonda qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

AZƏRTAC xəbər verir ki, qanun layihəsi Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında da müzakirəyə çıxarılıb. Burada əsasən sertifikasiya imtahanından keçə bilməyən tibb işçiləri üçün iş yerinin və aylıq vəzifə maaşının altı ay müddətində saxlanılması, bu sahədə fəaliyyətin davamlılığının təmin olunması, işçilərin hüquqlarının qorunması, tibb işçilərinin peşə fəaliyyətinin davam etdirilib-etdirilməməsi ilə bağlı məsələnin daha aydın və konkret şəkildə tənzimlənməsi nəzərdən keçirilib.

Qeyd edilib ki, səhiyyə və əmək qanunvericiliyinin təkmilləşdirilməsi, tibb mütəxəssislərinin peşəkarlığının yüksəldilməsi və bu sahədə davamlı inkişafa nail olunması məqsədilə Səhiyyə Nazirliyi tərəfindən hazırlanmış qanun layihəsi bir çox aparıcı ölkələrin, o cümlədən Rusiya, Türkiyə, Sinqapur və digər dövlətlərin təcrübəsinə əsaslanaraq işlənib. Sənəd səhiyyə sistemində peşəkar bacarıqların qiymətləndirilməsi və keyfiyyətli xidmətin təmin olunması baxımından əlavə mexanizm rolunu oynayacaq.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Çin Milli İnsan Genomu Mərkəzində olub





**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Çin Xalq Respublikasına səfər çərçivəsində Pekində Çin Milli İnsan Genomu Mərkəzində olub.**

AZƏRTAC xəbər verir ki, Çinin Elm və Texnologiya Nazirliyinin rəyi ilə yaradılmış mərkəz Çində ölkə səviyyəli genom tədqiqat müəssisələrindən biridir. Çin Milli İnsan Genomu Mərkəzi elmi-tədqiqat nəticələrinin kommersiyalaşdırılmasını və Çində genomik sənayenin yaradılmasını təşviq edir. Mərkəz fundamental və klinik tədqiqatlar, populyasiya genetikası və bioinformatika sahələrində layihələr həyata keçirir. Bildirilib ki, mərkəzin işində ən qabaqcıl texnoloji avadanlıqlardan istifadə olunur.

Leyla Əliyeva mərkəzin laboratoriyalarına və bioloji nümunələr bankına baxıb. Mərkəzin rəhbərliyi ilə söhbət zamanı Azərbaycanın müvafiq qurumları ilə potensial əməkdaşlıq imkanları, o cümlədən onkoloji xəstəliklər, serebral iflic və digər xəstəliklərin müalicəsi zamanı Genom Mərkəzinin metodlarının tətbiqi məsələsi müzakirə olunub.

# Səhiyyə Nazirliyində «GE Healthcare» şirkətinin regional direktoru ilə görüş olub

**Səhiyyə Nazirliyində ABŞ-nin «GE Healthcare» şirkətinin Rusiya və MDB ölkələri üzrə prezidenti və icraçı direktoru Yelena Legezinanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**



Bu barədə Nazirliyin mətbuat xidmətindən verilən məlumatda bildirilir ki, görüşdə Azərbaycanın səhiyyə naziri Teymur Musayev «GE Healthcare» şirkətinin dünyada tibbi avadanlıq və texnologiyaların aparıcı istehsalçılarından biri olduğunu qeyd edib: «Şirkətin dünyanın qabaqcıl xəstəxanalarının yüksəkkeyfiyyətli diaqnostik vizualizasiya avadanlığı, MRT və ultrasəs aparatları, müasir İT həlləri ilə təmin edilməsi sahəsində zəngin təcrübəsi mütəxəssislərə diferensial diaqnostika zamanı dəqiq məlumat əldə etməyə imkan verir. Bundan əlavə, «GE Healthcare» texnologiyaları həkimlərin və tibb müəssisələrinin səmərəliliyini artırmağa və bir çox xəstəliklərin müalicəsinin dəqiq üsullarını seçməyə kömək edir», - deyə nazir vurğulayıb. Azərbaycanın səhiyyə naziri ikitərəfli əməkdaşlığın inkişaf edəcəyinə əminliyini ifadə edib.

«GE Healthcare» şirkətinin Rusiya və MDB ölkələri üzrə prezidenti Yelena Legezina isə belə görüşlərin təcrübə və bilik mübadiləsi baxımından vacibliyini vurğulayıb. Nümayəndə heyətinin rəhbəri şirkətin Azərbaycanla əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu bildirib. Qeyd olunub ki, «GE Healthcare» şirkəti tibbi görüntüləmə və informasiya texnologiyaları sahəsində zəngin təcrübəsi ilə yanaşı, tədqiqat və innovasiyalara fəal sərmayə qoyur, eyni zamanda, aparıcı tibb müəssisələri və səhiyyə mütəxəssisləri ilə əməkdaşlıq edir. Bundan əlavə, ixtisaslaşmış mütəxəssis və ekspertlərə tibbi avadanlıqlarla işləmək vərdişlərinə yiyələnməsinə kömək göstərmək məqsədilə «GE Healthcare» şirkəti Rusiya, Qazaxıstan və Özbəkistanda «GE Healthcare Academy» tədris mərkəzini açıb.

Görüş zamanı tərəflər müxtəlif sahələrdə qarşılıqlı əməkdaşlıq üçün potensial imkanları müzakirə ediblər.

# Səhiyyə naziri Belarusun ölkəmizdəki səfiri ilə görüşüb



Səhiyyə Nazirliyində Belarusun ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Dmitri Pineviç ilə görüş keçirilib.

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev Dmitri Pineviçi Belarusun ölkəmizdəki səfiri vəzifəsinə yeni təyin olunması münasibətilə təbrik edib.

Azərbaycanla Belarus arasında bir çox sahələrdə əlaqələrin genişləndiyini qeyd edən nazir vurğulayıb ki, dövlət başçılarının müntəzəm görüşləri, eyni zamanda, hökumət üzvlərinin qarşılıqlı səfərləri iki ölkə arasında müxtəlif istiqamətlərdə, o cümlədən səhiyyə sahəsində münasibətlərin inkişafında mühüm rol oynayır.

Teymur Musayev həmçinin səhiyyə sahəsində ölkələrimiz arasında səmərəli əməkdaşlığın səviyyəsindən məmnunluğunu ifadə edib. Nazirin sözlərinə görə, tibbin onkologiya, transplantologiya, kardiologiya, neyrocərrahiyyə və s. sahələrində çalışan mütəxəssis və həkimlərə təcrübə mübadiləsi və ixtisasartırma üzrə tədbirlərdə iştirak etmək üçün mütəmadi olaraq qarşılıqlı səfərlər təşkil olunur.

Əczaçılıq sənayesinin bütün dünyada innovativ inkişaf baxımından mühüm yer tutduğunu vurğulayan Teymur Musayev ölkələrimiz arasında bu sahədə uğurlu əməkdaşlığın olduğunu qeyd edib.

Səmimi qəbula görə minnətdarlığını bildirən səfir Dmitri Pineviç Belarusun Azərbaycanla əlaqələrin inkişafına xüsusi önəm verdiyini deyib. Son dövrlərdə Belarusla Azərbaycan arasında əməkdaşlığın müsbət dinamika ilə inkişaf etdiyini qeyd edən səfir ötən illər ərzində Azərbaycan - Belarus münasibətlərinin böyük yol keçərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini diqqətə çatdırıb.

Görüşdə tərəflər əczaçılıq sənayesi, tibb və səhiyyə sahəsində əməkdaşlıq perspektivlərini müzakirə ediblər. Həmçinin tibb kadrlarının hazırlanması prosesinin təkmilləşdirilməsi, səhiyyə sistemlərinin rəqəmsallaşdırılmasının tətbiqi üzrə əməkdaşlığın qurulması və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. İki ölkə arasında səhiyyə sahəsində əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə inam ifadə olunub.

# Səhiyyə naziri «İmmunlaşdırma həftəsi»nin keçirilməsi ilə bağlı əmr imzalayıb

**Azərbaycanın səhiyyə naziri Teymur Musayev aprelin 27-dən mayın 3-dək ölkəmizin bütün şəhər və rayonlarında «İmmunlaşdırma həftəsi»nin keçirilməsi ilə bağlı əmr imzalayıb.**

Bu barədə Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumatda bildirilir ki, əmr Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə 2006-cı ildən etibarən Avropa regionunda keçirilən «İmmunlaşdırma həftəsi»nin ölkəmizdə də yüksək səviyyədə təşkili məqsədini daşıyır.

Sənədə əsasən, Azərbaycanın bütün şəhər və rayonlarında təşkilati-hüquqi formasından asılı olmayaraq, uşaqlara ambulator-poliklinik xidmət göstərən bütün tibb idarə və müəssisələrinin rəhbərlərinə «İmmunlaşdırma həftəsi»nin keçirilməsi tapşırılıb.

Ölkənin şəhər və rayonlarında hər hansı səbəbə görə vaksinasiyadan kənarda qalan uşaqların «İmmunlaşdırma həftəsi» ərzində peyvəndlərə cəlb edilməsi sənəddə öz əksini tapıb. Eyni zamanda, uşaqların vaksinasiyasını həyata keçirən tibb müəssisələrinə immunlaşdırma tədbirlərinin təşkilində metodiki köməklik göstərilməsi, əhalinin bu barədə maarifləndirilməsi kimi məsələlərin təşkili də nəzərdə tutulub.

# Teymur Musayev: Türk Dövlətləri Təşkilatı regional əməkdaşlığın dərinləşməsində mühüm rol oynayır

## Azərbaycanın səhiyyə naziri Astanada türk dövlətləri səhiyyə nazirlərinin V iclasında çıxış edib

**Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərində Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin səhiyyə nazirlərinin V iclası keçirilib.**

Azərbaycan Səhiyyə Nazirliyi mətbuat xidmətinin və AZƏRTAC-ın yayımladığı məlumatlara görə, Türk Dövlətləri Təşkilatının və Qazaxıstan Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə ölkəmiz səhiyyə naziri Teymur Musayevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub.

Açılış nitqi ilə çıxış edən TDT-nin Baş katibi Kubanıçbek Ömürəlıyev tədbirin mahiyyətini vurğulayaraq bildirib ki, təşkilata üzv dövlətlər arasında səhiyyə sahəsində ikitərəfli və faydalı əməkdaşlıq mövcuddur.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə Regional direktoru Hans Henri Klüge tədbirin əhəmiyyətini vurğulayıb, iclasın işinə uğurlar arzulayıb.

Beynəlxalq tədbirdə TDT-yə üzv və müşahidəçi ölkələrin səhiyyə nazirləri, ali tibb təhsili qurumlarının rəhbərləri, həmçinin müxtəlif ölkələrdən dəvət olunmuş elm adamlarının iştirak etdiyini bildirən Qazaxıstanın səhiyyə naziri Akmaral Alnazarova iclasın uğurlu və səmərəli olacağına əminliyini ifadə edib.

İclasda çıxış edən Azərbaycanın səhiyyə naziri Teymur Musayev türk dünyasının tarixən müxtəlif çətinliklərlə üzləşdiyini, lakin bütün bəşəri sınaqlardan uğurla keçərək daha da gücləndiyini və inkişaf etdiyini vurğulayıb. O, ilk növbədə, ötən il dekabrın 25-də Bakı - Qroznı marşrutu ilə uçuş edən, «Azərbaycan Hava Yolları» aviaşirkətinə məxsus sərnişin təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğradığı zaman zərərçəkənlərin xilas edilməsi üçün köməklik göstərən Qazaxıstanın Səhiyyə Nazirliyi və digər dövlət orqanlarının əməkdaşlarına, həmçinin köməkliyini əsirgəməyən qardaş ölkənin vətəndaşlarına təşəkkürünü bildirib. Nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan xilasedicilərinin və tibb personalının peşəkar fəaliyyətini yüksək qiymətləndirdiyini, onların əsl qəhrəmanlıq göstərdiklərini qeyd etdiyini xatırladıb. Bildirib ki, Prezident İlham Əliyevin göstərişi ilə qəzadan dərhal sonra Azərbaycanın dövlət qurumlarından ibarət heyət Aktau şəhərinə ezam edilib. Qəza baş verən gün Qazaxıstanın səhiyyə naziri Akmaral Alnazarova ilə telefon əlaqəsi saxladığını deyən Teymur Musayev hadisənin baş verdiyi ilk dəqiqələrdən etibarən A.Alnazarova başda olmaqla, Qazaxıstanlı tibb işçilərinin böyük dəstək və fədakarlıq göstərdiklərini vurğulayıb. Bildirib ki, yaralıların sağ qalması və sonradan ölkələrinə təxliyə edilməsi vaxtında və yüksək peşəkarlıqla göstərilən tibbi yardım nəticəsində mümkün olub: «Yalnız Aktauda deyil, Qazaxıstanın bir neçə əyalətində iki gün ərzində minlərlə insan könüllü şəkildə qan verib. Qazaxıstanlı qardaş və bacılarımızın göstərdikləri həmrəylik Azərbaycan xalqının qəlbində böyük iz buraxıb».



Tədbirin yüksək səviyyədə təşkil olunduğunu vurğulayan Teymur Musayev Türk Dövlətləri Təşkilatının qısa müddətdə üzv və müşahidəçi ölkələr arasında münasibətlərin, regional əməkdaşlığın dərinləşməsində mühüm rol oynadığını bildirib: «Ortaq tarix, dil, kimlik və mədəniyyət kimi dörd əsas sütun üzərində qurulan təşkilatın beynəlxalq münasibətlər sistemində artan nüfuzu ölkə rəhbərlərinin uzaqgörən siyasətinin, qarşılıqlı inam və dəstəyinin nəticəsidir. 2024-cü ilin sentyabr ayında Ortaq Türk Əlifbasının qəbul edilməsi ən ali səviyyədə göstərilən dəstək sayəsində mümkün olub».



TDT səhiyyə nazirlərinin IV iclasının Şuşa şəhərində keçirilməsinin tarixi və qürurverici hadisə olduğunu vurğulayan Teymur Musayev iclas çərçivəsində Türktransplant Vahid İnformasiya Sisteminin yaradılmasına dair niyyət protokolunun və digər vacib sənədlərin imzalandığını qeyd edib. Donor və resipiyent məlumatlarının sərhədlərarası mübadiləsini nəzərdə tutan bu protokolun imzalanmasında göstərilən dəstəyə görə üzv dövlətlərə təşəkkürünü bildirib.

Eyni zamanda, nazir söyləyib ki, TDT-nin üzv və müşahidəçi ölkələrinin vahid tibb elmi məkanının yaradılması, birgə elmi tədqiqatların aparılması, vahid tibb təhsili standartlarının müəyyənləşdirilməsi, davamlı tibbi təhsilin təmin edilməsi builki iclasda birgə fəaliyyətin prioritet istiqamətləri kimi nəzərdən keçirilir. Teymur Musayev həmçinin qeyd edib ki, səhiyyədə informasiya-kommunikasiya texnologiyalarının sürətli tətbiqi TDT çərçivəsində vahid elektron səhiyyə standartlarının hazırlanmasını mümkün edir.

«Prezident İlham Əliyevin «Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərindən birinə çevrilməlidir» ifadəsinin uğurla reallaşdırıldığını görürük. Əminəm ki, hər birimiz bu istiqamətdə səylərimizi əsirgəməyəcəyik», - deyə Azərbaycanın səhiyyə naziri fikrini tamamlayıb.

Öz çıxışlarında Türkiyənin səhiyyə naziri Kemal Memişoğlu, Özbəkistanın səhiyyə naziri Asilbek Xudayarov, Qırğızıstanın səhiyyə naziri Erkin Çeçeybayev və Macarıstanın Daxili İşlər Nazirliyi dövlət katibinin müavini Judit Bidlo beynəlxalq tədbirin ölkələr arasında əməkdaşlığın müasir müstəvidə yeni prizmadan inkişafına təkan verəcəyini vurğulayıblar.

AZƏRTAC Qazaxıstan Səhiyyə Nazirliyinin mətbuat xidmətinə istinadla xəbər verir ki, forumda tərəflər səhiyyə sahəsində əməkdaşlığın möhkəmləndirilməsi, tibb və əczaçılıq sənayesində tərəfdaşlığın genişləndirilməsi, beynəlxalq təşkilatların rolunun gücləndirilməsi, mütəxəssislər arasında təcrübə mübadiləsi və rəqəmsal texnologiyaların tətbiqi məsələlərini müzakirə ediblər.

Qazaxıstan tərəfi texnologiya transferi, kadr bazasının gücləndirilməsi, tibbi turizmin inkişafı, əczaçılıq istehsalı, transplantasiya və sairə sahələrdə əməkdaşlıq istiqamətlərini müəyyən edən 2025-2026-cı illər üçün Fəaliyyət Planı layihəsini təqdim edib.

Bundan əlavə, TDT üzvü olan ölkələrin səhiyyə sistemlərinin inkişafında beynəlxalq qurumların rolu müzakirə olunub.

Görüşün yekununda beynəlxalq təşkilatlar və özəl sektorla əməkdaşlığa dair birgə Bəyannamə imzalanıb. Sənədə əsasən, təşkilatın səhiyyə nazirlərinin növbəti görüşünün Qırğızıstanda keçirilməsi qərara alınıb. Sənəd tibb təhsilinin standartlaşdırılması, səhiyyədə İKT-nin tətbiqi və pasiyent məlumatlarının mübadiləsini təklif edir.

Forum çərçivəsində həmçinin tibbi təhsil, bioloji təhlükəsizlik və təcili tibbi yardım sahəsində əməkdaşlıq haqqında memorandumlar imzalanıb. TDT işçi qrupunun növbəti illər üçün Fəaliyyət Planları təsdiq edilib.

Həmçinin, tədbir çərçivəsində Astana Tibb Universiteti ilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmləri sahəsində Anlaşma Memorandumu imzalanıb.

Görüşün yekunları ilə bağlı mətbuata açıqlama verən səhiyyə naziri Teymur Musayev bildirib ki, TDT səhiyyə nazirlərinin bundan əvvəlki - ötən il Şuşada baş tutan IV görüşündən qısa müddət keçməsinə baxmayaraq, böyük həcmdə işlər görülüb: «Təşkilat çərçivəsində Vahid Türk Transplant və Vahid İnformasiya Platformasının işə salınmasına hazırlıq gedir. Bu istiqamətlə paralel olaraq, səhiyyə sektorunda Vahid İnvestisiya Siyasətinin formalaşdırılması məsələsi də gündəmdədir».

Budəfəki görüşdə ortaq səhiyyə problemlərinin müzakirə olunduğunu söyləyən səhiyyə naziri bildirib ki, TDT-yə üzv ölkələrin ümumi əhalisi 200 milyona yaxındır və burada böyük iqtisadi imkanlar var. Bu amil səhiyyə sahəsində sərmayə qoyuluşuna böyük maraq oyadır: «İstər xəstəxana infrastrukturunun yaradılması, istər əczaçılıq və biotexnoloji istehsalat, istərsə də tibbi avadanlıqların istehsalı sahəsində ortaq sərmayələr mümkündür. Vahid səhiyyə məkanının formalaşdırılması üçün düzgün və optimal siyasətin həyata keçirilməsi vacib amildir».

Bu məqsədlə alt işçi qruplarının yaradıldığını bildirən Teymur Musayev növbəti görüşədək əsas qərarların qəbul olunacağına ümid etdiyini bildirib.

# Azərbaycan səhiyyə naziri Astanada bir sıra görüşlər keçirib

**Astanada Türk Dövlətləri Təşkilatı (TDT) səhiyyə nazirlərinin V iclası çərçivəsində Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevin bir sıra çoxtərəfli və ikitərəfli görüşləri baş tutub.**









Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, Qazaxıstanın Baş naziri Oljas Bektenovun TDT-yə üzv və müşahidəçi ölkələrin səhiyyə nazirləri ilə görüşü zamanı ölkələrimiz arasındakı münasibətlərin dinamik inkişaf etdiyi vurğulanıb. Bu məsələdə Azərbaycan Prezidenti İlham Əliyevin müstəsna diqqət və dəstəyi qeyd edilib.

Səhiyyə naziri Teymur Musayev ötən il dekabrın 25-də Bakı - Qroznı marşrutu ilə uçuş edən “Azərbaycan Hava Yolları” aviaşirkətinə məxsus sərnişin təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğradığı zaman zərərçəkənlərin xilas edilməsi üçün köməklik göstərən Qazaxıstan Səhiyyə Nazirliyi və digər dövlət qurumlarının əməkdaşlarına, həmçinin qardaş ölkənin vətəndaşlarına təşəkkürünü bildirib.

Ölkələrimiz arasındakı münasibətlərin ikitərəfli qaydada inkişafı ilə yanaşı, beynəlxalq platformalarda da uğurlu əməkdaşlığın davam etdiyi diqqətə çatdırılıb. Azərbaycanın səhiyyə naziri TDT çərçivəsində ölkəmizin irəli sürdüyü təşəbbüslərin Qazaxıstan tərəfindən dəstəkləndiyinə görə minnətdarlığını bildirib.

Qazaxıstan Prezidentinin köməkçisi Tamara Duysenova ilə keçirilən görüşdə Türk Dövlətləri Təşkilatına daxil olan ölkələr arasında son illərdə müxtəlif sahələrdə, o cümlədən səhiyyə sahəsində əlaqələrin dinamik inkişaf etdiyi vurğulanıb.

Azərbaycanın səhiyyə naziri Teymur Musayevin Qazaxıstanın səhiyyə naziri Akmaral Alnazarova ilə görüşündə tibb müəssisələrinin akkreditasiyası, fövqəladə vəziyyətlərdə təcili tibbi yardım, səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın mövcud vəziyyəti və potensial inkişaf perspektivləri müzakirə olunub.

Teymur Musayev həmçinin Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə Regional direktoru Hans Henri Klüge ilə görüşüb. Görüşdə tərəflər Azərbaycanın ÜST ilə səmərəli əməkdaşlığını müsbət dəyərləndiriblər.

# TDT ölkələri səhiyyə nazirlərinin V iclası çərçivəsində Qazaxıstanın bir sıra tibb mərkəzləri ilə tanışlıq olub




Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərində Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi ölkələrin səhiyyə nazirlərinin V iclası çərçivəsində səhiyyə naziri Teymur Musayevin başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti Qazaxıstanın aparıcı tibb mərkəzləri olan Təcili Tibbi Yardım üzrə Milli Koordinasiya Mərkəzinin, Milli Elmi Onkologiya Mərkəzinin və



Qazaxıstan Respublikası Prezidenti Administrasiyasının Tibb Mərkəzinin fəaliyyəti ilə tanış olub.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Təcili Tibbi Yardım üzrə Milli Koordinasiya Mərkəzində keçirilən görüşdə fövqəladə hallar zamanı qurumda operativ cavab tədbirlərinin əlaqələndirilməsi, sanaviasiya xidmətlərinin inkişafı, təcili tibbi yardımın monitorinqi, tibbi evakuasiya sahəsində müasir texnologiyaların tətbiqi barədə məlumat verilib.

AZƏRTAC Qazaxıstan Səhiyyə Nazirliyinin mətbuat xidmətinə istinadla xəbər verir ki, Təcili Tibbi Yardım üzrə Milli Koordinasiya Mərkəzində Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasında təcili tibbi yardım sahəsində əməkdaşlığa dair Memorandum imzalanıb.

Təcili tibbi yardım sisteminin inkişafını, peşəkar bacarıqlar və innovativ həllərin tətbiqi üzrə təcrübə mübadiləsini nəzərdə tutan Memorandumu Azərbaycan tərəfdən Azərbaycan Respublikası Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinin direktoru Mirələm Cəlalov imzalayıb.

Türk dövlətləri səhiyyə nazirlərinin V görüşünün iştirakçıları Qazaxıstanın ən böyük ixtisaslaşmış tibb mərkəzi olan, onkoloji xəstəliklərin diaqnostikası və müalicəsinin qabaqcıl üsulları ilə tanınan Milli Elmi Onkologiya Mərkəzi ilə də tanış oldular.

Bundan əlavə, dövlət qulluqçularına ixtisaslaşmış və yüksək texnologiyalı tibbi yardım göstərən Qazaxıstan Respublikası Prezidenti Administrasiyasının Tibb Mərkəzinə də baxış keçirilib.

TDT-yə üzv və müşahidəçi ölkələrin səhiyyə nazirlərinin V iclası çərçivəsində Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təşəbbüsü ilə «Mərkəzi Asiya - Vərəmdən azad» təşəbbüsünün irəli sürülməsi» mövzusunda subregional görüş keçirilib. Tədbirdə Mərkəzi Asiya ölkələrində vərəmin profilaktikası, diaqnostikası və müalicəsi sahəsində əldə olunan nailiyyətlər və mövcud problemlər barədə məlumat verilib.

Həmçinin tədbir çərçivəsində biznes tərəfdaşlarının iştirakı ilə «TDT ölkələrində səhiyyəyə investisiyaların cəlb edilməsi» mövzusunda işgüzar görüş keçirilib. Görüş zamanı səhiyyə sahəsində mövcud vəziyyət və bu sektora investisiyaların cəlb edilməsi, o cümlədən türk dövlətləri vətəndaşlarının həyat keyfiyyətinin və sağlamlığının yaxşılaşdırılmasına yönəlmiş layihələrin birgə həyata keçirilməsi yolları müzakirə edilib.

Daha sonra Qazaxıstanın Əczaçılıq və Tibbi Avadanlıq Sərgisi ilə tanışlıq olub.

# Akademik Zərifə Əliyevanın anadan olmasının 102-ci ildönümündə İrpendə poliklinikanın rəsmi açılışı olub



**Ukraynanın İrpen şəhərində görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın anadan olmasının 102-ci ildönümü ilə əlaqədar təntənəli tədbirlər keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə müharibə zamanı dağılmış İrpen şəhər poliklinikasının Azərbaycan dövlətinin maliyyə dəstəyi ilə əsaslı təmirindən sonra rəsmi açılışı olub. Açılış mərasimində Ali Radanın deputatları, xarici ölkələrin Ukraynadakı diplomatik korpusunun rəhbərləri, SOCAR-ın Ukraynadakı nümayəndəliyinin rəhbərliyi, Akademik Zərifə Əliyeva adına 12 saylı «Linqvist» liseyinin kollektivi, ölkənin ictimai fəalları, yerli media təmsilçiləri iştirak ediblər.

Tədbir iştirakçıları akademik Zərifə Əliyevanın İrpen şəhərindəki büstü önünə tər çiçəklər düzüb, onun əziz xatirəsinə ehtiram ifadə ediblər. Liseyin direktoru Valentina Antonenko Zərifə Əliyevanın fəaliyyət və yaradıcılığından danışdıqdan sonra şagirdlər Azərbaycan və Ukrayna dillərində şeirlər səsləndiriblər.

Daha sonra poliklinikanın açılış mərasimində çıxış edən Azərbaycanın Ukraynadakı səfiri Seymur Mərdəliyev bildirib ki, İrpendə fəal hərbi döyüşlər zamanı ciddi ziyan dəymiş şəhər poliklinikasının bərpası başa çatdırılaraq, rəsmi olaraq Ukrayna hakimiyyət orqanlarına təhvil verilir. Bu tibb müəssisəsi Azərbaycan hökumətinin dəstəyi və Ukraynanın enerji sektorunda aparıcı Azərbaycan brendi olan «SOCAR Ukraine» şirkətinin maliyyə dəstəyi ilə təmir edilib. Son il yarım ərzində klinikanın fasadları və dam örtüyü yenilənib, bütün pəncərələr dəyişdirilib, müasir yanğındanmühafizə və havalandırma sistemləri quraşdırılıb. Eyni zamanda, obyektin zirzəmisində tamamilə yeni sığınacaq tikilib.

«Yenilənmiş poliklinikanı təqdim etməklə biz «Linqvist» liseyinin tam yenidən qurulmasından sonra İrpendə ikinci infrastruktur layihəsini artıq başa çatdırmışıq. Amma biz bunlarla dayanmaq fikrində deyilik. Azərbaycanla Ukrayna arasında əsl dostluq və möhkəm tərəfdaşlıq rəmzinə çevrilmiş bu gözəl şəhərdə yaxın aylarda Azərbaycan daha dörd irimiqyaslı yenidənqurma layihəsi həyata keçirməyi planlaşdırır. Müharibə başlayandan Azərbaycan Ukraynaya həm siyasi, həm də humanitar dəstək verib. Bu layihə enerji təhlükəsizliyi, uşaqların reabilitasiyası, humanitar minatəmizləmə və Ukraynanın bərpası kimi sahələri əhatə edən, Azərbaycanın Ukraynaya çoxşaxəli humanitar yardımının bir hissəsidir. Azərbaycanın humanitar yardımının həcmi 42 milyon ABŞ dolları təşkil edib. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, Azərbaycan Ukraynaya humanitar yardımını davam etdirməyə hazırdır», - deyə səfir əlavə edib.

Seymur Mərdəliyev həmçinin bildirib ki, poliklinikanın təntənəli açılışı həmin gün doğum günü qeyd olunan görkəmli Azərbaycan oftalmoloqu, akademik Zərifə xanım Əliyevanın irsinə həsr edilir. Zərifə xanım Əliyevanın adını daşıyan şəhərdəki küçə, «Linqvist» liseyi və park, habelə akademikin parkda ucaldılan heykəli onun İrpendəki inanılmaz irsinin etirafına xidmət edir və bütün bunlar Azərbaycanla bu şəhər arasında dostluğun simvoludur. Zərifə xanım Əliyevanın irsini yaşadan bir şəhərdə onun yubileyini təntənəli şəkildə qeyd etmək şərəfdir.

Tədbirdə çıxış edən Ukrayna Baş nazirinin ərazilərin bərpası üzrə müavini Oleksiy Kuleba, Kiyev vilayət Hərbi Administrasiyasının rəhbəri Mikola Kalaşnik, Ukrayna Ali Radasının sədrinin müavini Olena Kondratyuk, Ukrayna xarici işlər nazirinin müavini Oleksandr Mişenko, Ukraynanın səhiyyə nazirinin müavini İqor Kopaç müharibə zamanı Ukraynaya göstərdiyi dəstəyə görə Azərbaycan dövlətinə, Prezident İlham Əliyevə təşəkkürlərini bildiriblər. Qeyd ediblər ki, Azərbaycan tərəfdaş ölkə kimi ağır günlərdə hər zaman Ukraynaya öz yardım əlini uzadıb. İndi də bu humanitar yardımlar davam edir.

Açılış mərasiminin sonunda iştirakçılar əsaslı təmirdən çıxmış poliklinika ilə, o cümlədən müasir tipli sığınacaqla tanış olublar.

# Səhiyyə Nazirliyinin rəhbərliyi akademik Zərifə Əliyevanın xatirəsini ehtiramla yad edib

**Aprelin 28-də Azərbaycan oftalmologiya elminin görkəmli nümayəndəsi, Milli Elmlər Akademiyasının bu sahədə ilk həqiqi üzvü, fədakar alim akademik Zərifə xanım Əliyevanın anadan olmasının 102 illiyi qeyd olunub.**





Səhiyyə Nazirliyinin rəhbərliyi bu münasibətlə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın məzarlarını ziyarət edib.

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, Səhiyyə Nazirliyinin rəhbər şəxsləri əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edərək önünə gül dəstələri qoyublar.

Sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi ehtiramla yad edilib, məzarı önünə əklil qoyulub və tər çiçəklər düzülüb.

Həmçinin görkəmli dövlət xadimi və ictimai xadim Əziz Əliyevin, istedadlı həkim Tamerlan Əliyevin də məzarları üzərinə tər çiçəklər qoyulub.

Akademik Zərifə xanım Əliyevanın tədqiqatları və alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində mühüm mərhələ təşkil edir. Azərbaycan oftalmologiya elmini dünyada tanıdan Zərifə Əliyevanın açdığı yol ildən-ilə genişlənir, zəngin irsi, pedaqoji fəaliyyəti dönə-dönə araşdırılır, öyrənilir və neçə-neçə tədqiqat əsərinin mövzusuna çevrilir.

# Səhiyyə və tibb elmi sahəsində Azərbaycan - Kuba əməkdaşlığı müzakirə olunub

**Azərbaycan Respublikasının Səhiyyə Nazirliyində Kubanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Karlos Enrike Valdes de la Konsepsyon ilə görüş keçirilib.**



Nazirliyin mətbuat xidmətindən bildirib ki, görüşdə səhiyyə naziri Teymur Musayev bütün sahələrdə olduğu kimi, səhiyyə və tibb elmi sahəsində də Azərbaycan - Kuba əməkdaşlığının nümunəvi olduğunu vurğulayıb. Teymur Musayev Səhiyyə Nazirliyinin nümayəndə heyətinin 2023-cü ildə dost dövlətə səfəri və Baş nazir Manuel Marrero Krusla görüşünü xatırladıb: «Səfər çərçivəsində bir sıra əhəmiyyətli və məhsuldar görüşlər baş tutub. Nümayəndə heyəti Kuba Respublikasının aparıcı tibb və əczaçılıq müəssisələrinin fəaliyyəti ilə tanış olub. Həmçinin Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Kuba Respublikasının İctimai Səhiyyə Nazirliyi arasında Anlaşma Memorandumu imzalanıb».

Sonda Azərbaycanın səhiyyə naziri gələcəkdə əməkdaşlığın daha da səmərəli olacağına əminliyini ifadə edib.

Səfir Karlos Enrike Valdes de la Konsepsyon Kubanın Azərbaycanla əlaqələrin inkişaf etdirilməsinə xüsusi diqqət yetirdiyini qeyd edib: «Azərbaycan və Kuba arasında bir çox sahələrdə sıx əlaqələr mövcuddur. Ölkələrimiz arasında 1992-ci ildən etibarən diplomatik münasibətlər qurulub. Bu müddət ərzində Kuba və Azərbaycanın qarşılıqlı münasibətləri müsbət dinamika ilə inkişaf edir».

Dost ölkələrin Səhiyyə nazirlikləri arasında imzalanmış Anlaşma Memorandumunun əhəmiyyətini qeyd edən Kuba səfiri bu sənədin səhiyyə və tibb elminin inkişafı sahəsində ikitərəfli əlaqələrin möhkəmlənməsinə töhfə verəcəyini vurğulayıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Şanxay Əməkdaşlıq Təşkilatı dövlətlərində səhiyyənin inkişafı barədə fikir mübadiləsi aparılıb

## Azərbaycanın səhiyyə naziri üzv dövlətlərin səhiyyə nazirlərinin VIII iclasında çıxış edib



Çinin Sian şəhərində Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) dövlətlərinin səhiyyə nazirlərinin VIII iclası keçirilib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, beynəlxalq tədbirdə ŞƏT-də dialoq üzrə tərəfdaş statusuna malik olan ölkəmizi səhiyyə naziri Teymur Musayevin başçılıq etdiyi nümayəndə heyəti təmsil edib.

İclasda açılış nitqi ilə çıxış edən Çinin Milli Səhiyyə Komissiyasının naziri Ley Hayçao tədbir iştirakçılarını salamlayaraq qeyd edib ki, builki iclasda rəqəmsal səhiyyə, ənənəvi təbabət, ilkin səhiyyə xidmətləri və təcili tibbi yardım kimi vacib səhiyyə sahələrində fəaliyyətlərin birgə effektiv əlaqələndirilməsi müzakirə olunacaq.

Azərbaycanın səhiyyə naziri Teymur Musayev toplantıda çıxış edib. ŞƏT-ə üzv ölkələrin səhiyyə nazirlərinin VIII iclasının yüksək səviyyədə təşkil olunduğunu vurğulayan nazir 2024-cü il iyulun 3-də Astanada «Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə»nin qəbul olunduğunu xatırladıb: «Azərbaycan Prezidenti İlham Əliyev Çinin Sinxua agentliyinə müsahibəsində vurğulayıb ki, Birgə Bəyannamə tarixi hadisədir və Azərbaycan - Çin münasibətlərində yeni səhifə açır».

Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində 23 aprel 2025-ci il tarixində Pekində «Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat»ın imzalandığını diqqətə çatdıran Teymur Musayev deyib: «Prezident İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə Çinə dövlət səfəri ikitərəfli əlaqələrimizi daha da möhkəmləndirəcək və inkişafını sürətləndirəcək».

«Prezident İlham Əliyevin rəhbərliyi altında sosialyönümlü siyasətin həyata keçirilməsi, rəqəmsal dövlət idarəçiliyinə keçid və iqtisadiyyatın şaxələndirilməsi Azərbaycan Respublikasının regionun aparıcı ölkəsi kimi mövqeyini gücləndirib. Dövlət başçısı öz çıxışında qeyd etdiyi kimi, COP29-un Bakıda keçirilməsinə dair yekdil qərar ötən ilin noyabrında beynəlxalq ictimaiyyətin ölkəmizə böyük hörmət və etimadının göstəricisidir. Ətraf mühitin çirklənməsinin insan sağlamlığına təsirinin azaldılması və sağlam həyat tərzinin təşviqi Azərbaycan hökumətinin əsas prioritetləridir», - deyə səhiyyə naziri bildirib.



Nazirin sözlərinə görə, qlobal səhiyyə son illər pandemiya, iqlim dəyişikliyi kimi amillərin təsiri ilə həm irəliləyişlər, həm də geriləmələr yaşayıb. Eyni zamanda, qlobal böhranlar müsbət dəyişikliklər üçün imkanlar yaradır və onlar tərəqqiyə aparan addımlar kimi qiymətləndirilməlidir: «Böyük ehtimalla səhiyyə sektorunun inkişafı texnoloji tərəqqi, məlumatların təhlili və fərdiləşdirilmiş tibbə keçidin formalaşması ilə müəyyən ediləcək. Dünya səhiyyə işçiləri çatışmazlığı ilə üzləşdiyi bir zamanda yeni köməkçi - süni intellekt bizim köməyimizə gəlir. Onun ən mühüm töhfələrindən biri xüsusilə ilkin səhiyyə sistemlərini gücləndirməklə, səhiyyə xidmətlərinə çıxışı genişləndirməkdir. Bu texnologiyaların tam inteqrasiyası məqsədilə süni intellektin praktiki imkanlarından səmərəli istifadə etmək üçün qanunvericilik bazasının hazırlanması zəruridir. Rəqəmsal alətlərin çox böyük faydaları olsa da, onlar insan amilini əvəz etməməli, tibb işçilərinə birbaşa xəstə baxışına daha çox vaxt sərf etməyə imkan verən dəstəkləyici vasitələr olmalıdır.

Səhiyyə sistemlərinin digər əsas aspekti davamlılıqdır. Ətraf mühitə təsiri minimuma endirmək, enerji istehlakını azaltmaq və davamlılığı təşviq etmək üçün biz «yaşıl xəstəxana»ların sayını artırmalı və səhiyyə müəssisələrində enerji səmərəliliyinə sərmayə qoymalıyıq. Səhiyyə sektoruna yatırımlar ümumi gələcəyə qoyulan investisiyalardır», - deyə Azərbaycanın səhiyyə naziri fikrini tamamlayıb.

Təşkilata üzv ölkələrin səhiyyə sahəsində fəaliyyət göstərən dövlət qurumlarının rəhbərləri öz çıxışlarında ŞƏT-ə üzv ölkələr arasında səhiyyə sahəsində əməkdaşlığın əsas istiqamətləri barədə məlumat veriblər. Həmçinin, regionun bütün ölkələrinin bu sahədə əməkdaşlığın daha da genişləndirilməsinə fəal dəstək verdiyi vurğulanıb.

Sonda görüş iştirakçıları ŞƏT-ə üzv dövlətlərdə səhiyyə sisteminin inkişafı, bu sahədə beynəlxalq təşkilatların rolu, tibb və əczaçılıq kadrlarının potensialının artırılması, o cümlədən ilkin səhiyyə, rəqəmsal səhiyyə və xalq təbabəti sahəsində ölkələr arasında əməkdaşlıq perspektivləri kimi məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Qətər Azərbaycanla səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın genişləndirilməsində maraqlıdır



**Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev Qətər Dövlətinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Həməd Səad Əl-Fuheyd Əl-Haciri ilə görüşüb.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə Teymur Musayev Azərbaycanla Qətər arasında ikitərəfli əlaqələrin bir çox sahələrdə uğurla davam etdiyini diqqətə çatdırıb. Nazir dövlətlərarası münasibətlərin genişləndirilməsində yüksəksəviyyəli qarşılıqlı səfərlərin önəmini vurğulayıb, həmçinin Azərbaycanla Qətər arasında səhiyyə sahəsində ikitərəfli əlaqələrin inkişafı üçün geniş potensialın olduğunu qeyd edib. Onun sözlərinə görə, ölkələrimizin ali tibb mütəxəssislərinin davamlı peşə təhsili sahəsində müasir metodiki və elmi-praktik təcrübə mübadiləsi üçün bütün imkanlar mövcuddur.

Sonda səhiyyə naziri gələcəkdə əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə əminliyini bildirib.

Məhəmməd Həməd Səad Əl-Fuheyd Əl-Haciri isə dövlətlərarası əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayıb, ölkələrimiz arasında tarixi və ənənəvi dostluq münasibətlərinin mövcudluğunu qeyd edib. Diplomat həmçinin ölkəsinin Azərbaycanla səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu bildirib.

Görüşdə tibb təhsili, bu sahədə peşəkar kadrların hazırlanması və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Səhiyyə Nazirliyində Qlobal Fondun yeni təyin olunan Portfolio meneceri ilə görüş keçirilib

**Səhiyyə Nazirliyində QİÇS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fondun (QF) Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üzrə yeni təyin olunan Portfolio meneceri Valeriya Qrişeçkina ilə görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, səhiyyə naziri Teymur Musayev Valeriya Qrişeçkinanı QF-nin Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üzrə Portfolio meneceri vəzifəsinə təyin olunması münasibətilə təbrik edib.

Nazir öz çıxışında Azərbaycanın Qlobal Fondla əməkdaşlığa önəm verdiyini vurğulayıb, Səhiyyə Nazirliyinin Qlobal Fondun missiyaları ilə mütəmadi keçirilən görüşlərinin mövcud əlaqələrin daha da gücləndirilməsinə töhfə verdiyini qeyd edib.

Teymur Musayev həmçinin xatırladıb ki, 2005-ci ildən QİÇS, Vərəm və Malyariya ilə mübarizə üzrə Qlobal Fond Azərbaycanda vərəm əleyhinə fəaliyyətin dəstəklənməsində yaxından iştirak edir: «Hazırda Azərbaycanda Qlobal Fondun layihələri davamlı olaraq həyata keçirilir və ölkəmizin vərəmlə mübarizəsinə böyük töhfə verir».

2023-cü ilin martında Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən Azərbaycanın "malyariyadan azad ölkə" kimi sertifikatlaşdırılmasını qeyd edən nazir malyariya ilə mübarizədə uğurun həm də ÜST-nin aparıcı mövqe tutduğu tərəfdaşların uzun illər hərtərəfli dəstəyi sayəsində mümkün olduğunu vurğulayıb.

Sonda Azərbaycanın səhiyyə naziri gələcəkdə əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə əminliyini ifadə edib.

Səmimi qəbula görə minnətdarlığını bildirən Valeriya Qrişeçkina Azərbaycanın "malyariyadan azad ölkə" kimi sertifikatlaşdırılmasını yüksək qiymətləndirib. Qlobal Fondun Portfolio meneceri həmin nailiyyətin səhiyyə işçilərinin davamlı fədakarlığı, həmçinin malyariya hallarının məqsədyönlü şəkildə qarşısının alınması, erkən aşkarlanması və müalicəsi sayəsində mümkün olduğunu bildirib.

Görüşdə həmçinin əməkdaşlığın mövcud vəziyyəti, potensial inkişaf imkanları və maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.




# Akademik Zərifə Əliyevanın anadan olmasının 102 illiyinə həsr edilmiş beynəlxalq elmi-praktik konfrans keçirilib

**Səhiyyə Nazirliyi, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin birgə təşəbbüsü ilə görkəmli oftalmoloq alim akademik Zərifə Əliyevanın anadan olmasının 102 illiyinə həsr edilmiş beynəlxalq elmi-praktik konfrans keçirilib.**






AZƏRTAC xəbər verir ki, Milli Oftalmologiya Mərkəzində keçirilən konfransda mərkəzin həkimləri, ölkənin müxtəlif bölgələrindən gəlmiş oftalmoloqlarla yanaşı, Rusiya, Türkiyə, İtaliya, Gürcüstan və digər ölkələrdən tanınmış mütəxəssislər də iştirak ediblər.

Oftalmologiya sahəsində əldə olunan son elmi nailiyyətlərin və tibbi texnologiyaların müzakirəsi, yerli və xarici mütəxəssislərin təcrübə mübadiləsi üçün mühüm platforma olan konfrans oftalmologiyanın aktual məsələləri, yeni diaqnostika və müalicə metodlarının təhlili, eyni zamanda, gələcək hədəflərin müəyyən edilməsi məqsədi daşıyıb.

Tədbirdə Türk Oftalmoloji Dərnəyinin fəxri prezidenti Sunay Duman «Akademik Zərifə Əliyevanın işığında oftalmologiyanın gələcəyi», Milli Oftalmologiya Mərkəzinin direktor müavini, tibb elmləri doktoru, dosent Hicran Namazova «Akademik Zərifə Əliyevanın zəngin elmi irsi və müasir oftalmologiyanın inkişafı», Türk Oftalmoloji Dərnəyinin rəhbəri professor Hüban Atilla «Ambliopiya: yeni müalicə üsulları» mövzularında məruzələrlə çıxış ediblər. Həmçinin «Paul qlaukoma implantı, qısamüddətli nəticələr», «SMILE PRO - lazer görmə korreksiyasının innovativ üsulu», «Azərbaycanın regionlarında uveitin epidemiologiyasının təzahürləri», «Tor qişanın vitreoretinal cərrahiyyəsi: qeyri-standart hallar», «Oftalmoloji yardımın III etapında göz travmatizmi ilə bağlı təcili və təxirəsalınmaz müraciətlərin regional xüsusiyyətləri» və s. mövzularda nəzəri biliklər və praktik təcrübə təqdim olunub. Elmi diskussiyalar oftalmologiya sahəsində yeni yanaşmaların formalaşmasına zəmin yaradıb.

# Bakıda Birinci Gənc Kardioloqlar Forumu keçirilib

**Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Kardiologiya İnstitutunun (ETKİ) təşkilatçılığı ilə Bakıda Birinci Gənc Kardioloqlar Forumu keçirilib.**

Tədbirdə dövlət qurumlarının rəhbər şəxsləri, deputatlar, tanınmış elm xadimləri, Azərbaycan Tibb Universitetinin tələbələri, «ETKİ könüllüləri» və



Azərbaycanın elm və tibb müəssisələrinin, eləcə də peşəkar cəmiyyətlərin nümayəndələri iştirak ediblər.

Birinci Gənc Kardioloqlar Forumunun rəsmi açılış mərasimində ETKİ-nin direktoru və forumun sədri, professor Gülnaz Dadaşova tədbirin vacibliyini vurğulayıb: «Bu forum kardiologiya sahəsində həyata keçirilən islahatların ilkin nəticələrini və perspektivlərini dərindən analiz etmək, eləcə də geniş, çoxtərəfli müzakirələr aparmaq üçün əhəmiyyətli bir platformadır. Əminəm ki, forumda aparılan səmərəli müzakirələr və fikir mübadiləsi kardiologiyanın növbəti dövründəki inkişafına əhəmiyyətli töhfə verəcək».



Çıxış edən Səhiyyə Nazirliyinin Səhiyyə siyasəti şöbəsinin müdiri Ramik Quliyev bildirib ki, zəngin proqram çərçivəsində maraqlı panellər və kurslar keçirilir və bu da öz növbəsində kardiologiya sahəsinin inkişafına müsbət təsir göstərir.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli forumun kardiologiya sahəsində gənc mütəxəssisləri bir araya gətirərək, birgə tədqiqat imkanlarını nəzərdən keçirmək və ürək-damar xəstəliklərinin müalicəsində əhaliyə göstərilən səhiyyə xidmətlərinin keyfiyyətini artırmaq baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva çıxışında forumun proqramına yeni tibbi texnologiyaların və fundamental tibbin nailiyyətlərinin praktiki aspektlərinə həsr olunmuş iclasların, orijinal tədqiqat nəticələrinin və real klinik təcrübədən götürülmüş hallar əsasında keçirilən klinik debatların daxil olduğunu bildirib.

Qeyd edək ki, üç gün davam edən foruma 600-dən artıq yerli mütəxəssis qatılıb. Birinci Gənc Kardioloqlar Forumu Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən akkreditasiya olunub və 46 DTT kredit balı ilə qiymətləndirilib.

# Mayın 1-dən «e-bülleten» sisteminə keçilir

**Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) may ayının 1-dən etibarən ölkədə «e-bülleten» sisteminə keçidlə bağlı birgə məlumat yayıblar.**




Məlimatda bildirilir ki, Nazirlər Kabinetinin müvafiq Qərarına əsasən, tətbiq edilən innovativ yenilik olaraq, Səhiyyə Nazirliyinin və TƏBİB-in tabeliyində fəaliyyət göstərən tibb müəssisələrində «Sığortaolunanlar üçün xəstəlik vərəqələri» bu il mayın 1-dən Səhiyyə Nazirliyinin «Vahid Səhiyyə İnformasiya Sistemi» vasitəsilə elektron sənəd formasında hazırlanacaq.

Bundan sonra həmin elektron bülletenlər tibb müəssisələri tərəfindən e-imza ilə təsdiq ediləcək, işəgötürənə və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fonduna (DSMF) elektron qaydada göndəriləcək.

Həmin e-sənəd DSMF tərəfindən işçiyə müvəqqəti əmək qabiliyyətinin itirilməsinə, hamiləliyə, doğuma görə müavinətlərin təyinatı üçün əsas olacaq.

Bu məqsədlə Səhiyyə Nazirliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə elektron xəstəlik vərəqələrinə dair məlumatları vahid e-reyestrdə birləşdirib.

Nəticədə, işəgötürənlər bu e-bülletenləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq informasiya sistemindən, tibb işçiləri isə «e-Səhiyyə» portalı və mobil tətbiqindən asan və rahat şəkildə əldə edə biləcəklər.

«E-bülleten» sisteminə keçid qeyd edilən sahədə kağız daşıyıcıların saxlanması və emalı ilə bağlı artıq iş yükünün aradan qaldırılması və vaxt itkisinin minimallaşdırılmasına, xidmətlərin çevikliyinə və keyfiyyətinin, şəffaflığının artırılmasına şərait yaradır.

Elektron xəstəlik vərəqəsinə keçidlə bağlı suallara Səhiyyə Nazirliyi Rəqəmsal Səhiyyə Mərkəzinin mütəxəssisi Sevinc Məhərrəmova nazirliyin rəsmi İnstaqram hesabında canlı yayımda aydınlıq gətirib.

Mütəxəssis bildirib ki, elektron xəstəlik vərəqəsi (e-bülleten) funksional baxımdan kağız daşıyıcılarda tərtib edilən ənənəvi xəstəlik vərəqələrinin elektron formatda təqdim olunan alternatividir: «Elektron xəstəlik vərəqəsi Vahid Səhiyyə İnformasiya Sistemi (VSİS) vasitəsilə rəqəmsal formada tərtib edilir və müvafiq sistem inteqrasiyaları əsasında Dövlət Sosial Müdafiə Fonduna (DSMF) ötürülür. Bu yanaşma ənənəvi prosedurla müqayisədə iş prosesini optimallaşdırır, sənəd dövriyyəsini azaldır və operativliyi təmin edir. E-bülleten əmək qabiliyyətinin müvəqqəti itirilməsi hallarında sığortaolunan şəxslərə ödənilən müavinətin hesablanması üçün əsas sənəd hesab olunur.

Elektron xəstəlik vərəqəsinin tərtib edilməsi üçün tibb işçisindən nə tələb olunur? Sevinc Məhərrəmovanın sözlərinə görə, bunun üçün səlahiyyətli həkimlər «Sima» hüquqi imza və VSİS sisteminə giriş hüququ əldə etməlidirlər. Qeyd olunan texniki və hüquqi tələblər təmin olunmadığı təqdirdə kağız daşıyıcılarda tərtib olunmuş xəstəlik vərəqələri etibarsız hesab ediləcək və DSMF tərəfindən qəbul olunmayacaq.

Mütəxəssis bildirib ki, elektron xəstəlik vərəqələrinin tərtibi «Elektron səhiyyə» adlı mobil tətbiq vasitəsilə də mümkündür: «Müvafiq tətbiqin mobil qurğulara yüklənməsi ilə həkimlərə e-bülletenlərin tərtib olunması prosesi əlçatan olur. Elektron xəstəlik vərəqələrini sığorta edənlər (işəgötürənlər) DSMF-nin «Əmək və Məşğulluq» altsistemi (ƏMAS) vasitəsilə əldə edə bilirlər. Tibb müəssisələri üçün isə bu sənəd VSİS üzərindən əlçatan olur. Vətəndaşlar üçün elektron xəstəlik vərəqələri «Elektron səhiyyə» mobil tətbiqi vasitəsilə əlçatandır. Həmçinin vətəndaşlar xəstəlik vərəqələrinin nüsxəsini müraciət etdikləri tibb müəssisəsindən də tələb edə bilərlər».

S.Məhərrəmova sonda qeyd edib ki, elektron xəstəlik vərəqələrinin tərtibi ilə bağlı hər hansı çətinlik yarandıqda tibb müəssisələri 814 Çağrı Mərkəzinə müraciət ünvanlaya bilərlər.

# Xəstəxanadaxili infeksiyaların idarə olunması mövzusu müzakirə edilib

**Bakıda «Xəstəxanadaxili infeksiyaların idarə olunmasında müasir tendensiyalar və innovativ yanaşmalar» mövzusunda ekspertlərin zirvə görüşü keçirilib.**



AZƏRTAC xəbər verir ki, Dövlət Gömrük Komitəsi (DGK) Tibbi Xidmət İdarəsinin (TXİ) Elmi-Təcrübi və Tədris Mərkəzinin və Mərkəzi Gömrük Hospitalının (MGH) birgə təşkilatçılığı ilə baş tutan tədbirdə açılış nitqi ilə çıxış edən DGK TXİ-nin rəisi, tibb xidməti general-mayoru Ceyhun Məmmədov mövzunun əhəmiyyətindən danışıb: «Xəstəxanadaxili infeksiyaların idarə olunması səhiyyə sistemlərinin dayanıqlılığını təmin edən ən vacib məsələlərdəndir. Təəssüf ki, statistika dünyada hər 10 xəstədən birinin xəstəxanadaxili infeksiyalara yoluxduğunu göstərir. Bu göstərici xüsusilə orta və aşağı gəlirli ölkələrdə daha yüksəkdir və bu, bizi ciddi narahat etməlidir». C.Məmmədov qeyd edib ki, xəstəxanadaxili infeksiyalar çox zaman antibiotiklərə davamlı mikroorqanizmlər tərəfindən törədilir: «Hazırda dünyada 136 milyondan çox infeksiya növü antibiotiklərə qarşı davamlıdır. Bu, təkcə tibbi deyil, həm də iqtisadi və sosial cəhətdən böyük təhlükə yaradır. Halbuki sözügedən infeksiyaların qarşısının alınması mümkündür».

Pandemiya dövrünün MGH üçün əsl sınaq olduğunu xatırladan C.Məmmədov həmin dövrdə COVID-19 xəstələrinə fasiləsiz tibbi xidmət göstərən hospitalda xəstəxana daxilində yoluxmanın qarşısını almaq üçün tibbi avadanlıqların dezinfeksiyası, ətraf mühitin təmizliyinin qorunması və infeksiya nəzarətinin sistemli şəkildə aparılmasının mühüm rol oynadığını deyib: «Burada laboratoriyaların rolu xüsusilə qeyd olunmalıdır. Dəqiq diaqnostika və effektiv nəzarət tədbirləri olmadan infeksiya zəncirini qırmaq çətindir. Lakin bu sahədə görülən tədbirlər böyük maliyyə vəsaiti tələb edir. Buna görə də xəstəxanadaxili infeksiyalar yalnız tibbi məsələ deyil, eyni zamanda, ictimai səhiyyə mövzusudur».

DGK TXİ-nin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov səhiyyə sahəsində qarşıya çıxan problemlərin təkcə elmi müstəvidə deyil, eyni zamanda, praktiki müstəvidə də yanaşma tələb etdiyinə diqqət çəkib: «Tibbin əsas məqsədi insan həyatının qorunmasıdır və bu məqsədə nail olmaq üçün nəzəri biliklər mütləq şəkildə praktikada tətbiq olunmalıdır. Xəstəxanadaxili infeksiyalar məsələsi cəmiyyət üçün olduqca aktualdır. Xəstəxana daxilində infeksiyalara nəzarətin zəif olması, təəssüf ki, bəzən xəstə ölümləri ilə nəticələnə bilər. Halbuki biz sadəcə dezinfeksiya qaydalarına ciddi riayət etməklə bu cür faciələrin qarşısını ala bilərik».

Müasir səhiyyənin imkanları genişlənməkdədir. Artıq ən mürəkkəb cərrahi əməliyyatlar, ağır klinik halların idarə olunması ölkəmizin tibb müəssisələrində müvəffəqiyyətlə həyata keçirilir. Lakin əgər əsas gigiyenik və infeksiya nəzarəti qaydaları yerinə yetirilmirsə, tibbin yüksək texnoloji imkanları belə, istənilən nəticəni təmin edə bilməz».

Səhiyyə Nazirliyinin İctimai səhiyyə və xəstəliklərə nəzarət şöbəsinin müdiri Nəzifə Mürsəlova vurğulayıb ki, tədbirdə müzakirə edilən məsələlər yalnız nəzəri çərçivədə qalmamalı, real praktikada tətbiq olunmalıdır: «Çünki xəstəxanadaxili infeksiyaların qarşısını almaqla biz təkcə xəstələrin deyil, bütövlükdə cəmiyyətin sağlamlığını qoruyuruq. Bu səbəbdən xəstəxanadaxili infeksiyaların qarşısının alınması ilə bağlı məsələnin ciddiliyi həm ictimaiyyətə, həm də tibb işçilərinə açıq və aydın şəkildə çatdırılmalıdır. Bu, yalnız bir qrupun deyil, bütün cəmiyyətin sağlamlığını qoruyan yanaşmadır».

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Tibbi xidmətlərin inkişafı departamentinin rəhbəri Yaqut Qarayeva TƏBİB tərəfindən 2020-ci ildən etibarən xəstəxanalarda infeksiyon nəzarət komitələrinin yaradıldığına diqqət çəkib: «Hər il minlərlə insan sadə profilaktik tədbirlərə əməl edilmədiyi üçün xəstəxana şəraitində infeksiyalara yoluxur. Bu infeksiyalar bəzən ölüm, bəzən isə ciddi fəsadlarla nəticələnir. Ancaq qeyd etməliyik ki, bu, qarşısı alınması mümkün olan bir problemdir. Əsas gigiyena qaydalarına, sterilizasiya və dezinfeksiya prosedurlarına düzgün əməl etməklə bu infeksiyaların böyük hissəsinin qarşısını almaq mümkündür. Bu həm xəstələrin həyatını qoruyur, həm də səhiyyə sisteminə düşən əlavə yükü azaldır».

DGK TXİ-nin rəis müavini İsmayıl Əfəndiyev bildirib ki, xəstəxanalarda infeksiyon nəzarətdə xüsusilə laboratoriyaların rolu önəmlidir: «Dəqiq və vaxtında diaqnostika infeksiyanın yayılmasının qarşısını almaqda mühüm rol oynayır. Xəstəxanadaxili infeksiyalara nəzarət tibb işçilərinin peşəkarlığı və məsuliyyəti ilə birbaşa bağlıdır. Hər bir səhiyyə əməkdaşı bu məsuliyyəti daşıyır və hər bir xəstə üçün təhlükəsiz mühit yaratmaq lazımdır».

Toplantıda MGH-nın infeksionisti Mədinə Abdullayeva «Xəstəxanadaxili infeksiyalarla mübarizənin əhəmiyyəti», İstanbul Hipokrat Laboratoriyalarının icraçı direktoru Oktay Öztürk «BİOMERİEX - xəstəxanadaxili infeksiyalarla mübarizəni dəstəkləyən əhatəli bir həll yolu - müasir Türkiyə təcrübəsi», MGH Laboratoriya şöbəsinin rəisi Səbinə İbrahimova «Naməlum etiologiyalı infeksiyon prosesin gedişində molekulyar-genetik müayinələrin üstünlüyü», İstanbul Florence Nightingale Xəstəxanasının infeksion xəstəliklər və klinik mikrobiologiya üzrə uzmanı Aslıhan Dəmirəl «Nazokomial virus infeksiyaları və onlarla müasir mübarizə», MGH İnfeksiyaya Nəzarət Komissiyasının üzvü Səttar Yaqubov «MGH-da xəstəxanadaxili infeksiyalara nəzarət təcrübəsi» mövzularında çıxışlar ediblər.

# Fəaliyyətinə icazə verilən plastik cərrahların siyahısı açıqlanıb



**Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının ərazisində praktik tibb fəaliyyəti ilə məşğul olan plastik cərrahların peşə fəaliyyətinin qanuni əsaslarının kompleks şəkildə yoxlanılması məqsədilə Səhiyyə Nazirliyi, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Elm və Təhsil Nazirliyinin səlahiyyətli nümayəndələrindən ibarət Xüsusi Təftiş Komissiyası yaradılıb.**

Səhiyyə Nazirliyinin mətbuat xidməti Komissiyanın məlumatını yayımlayıb. Məlumatda bildirilir ki, həmin tibb mütəxəssisləri Xüsusi Təftiş Komissiyasının iclaslarına dəvət olunub və sənədləri ətraflı araşdırılıb. Əvvəlcədən xəbərdarlıq edilməklə iclasların video-audio çəkilişləri aparılıb və hər bir iclas protokollaşdırılıb. Komissiyanın ümumilikdə 11 iclası keçirilib.

Xüsusi Təftiş Komissiyasının müvafiq qərarları ilə sənədlərinin əsaslılığı təsdiq olunmuş şəxslərdən ibarət «Azərbaycan Respublikasının ərazisində plastik cərrahiyyə ixtisası üzrə praktik tibb fəaliyyətinə icazə verilən həkim-mütəxəssislərin Siyahısı» tərtib olunub. Bu siyahı aprelin 17-nə olan məlumatları özündə əks etdirir. Tibb mütəxəssislərinin plastik cərrahiyyə ixtisası üzrə praktik tibb fəaliyyətinə icazə verən yeni hüquqi əsaslar olduqda sözügedən siyahı mütəmadi yenilənəcək.

**Azərbaycan Respublikasının ərazisində plastik cərrahiyyə ixtisası üzrə praktik tibb fəaliyyətinə icazə verilən həkim-mütəxəssislərin SİYAHISI**

| № | SOYAD, AD, ATA ADI | Reyestr nömrəsi |
|---|---|---|
| 1. | Abdullayev Elçin Nizami | 1085102 |
| 2. | Abbasova Aytən Namiq | 1097089 |
| 3. | Abdullayev Elvin Oruc | 1180879 |
| 4. | Axund-zadə İlyas Salavat | 1092439 |
| 5. | Cəlilova Günay Mustafa | 1170793 |
| 6. | Cümşüdov Adil Cümşüd | 1204212 |
| 7. | Əliyev Elman Sabir | 1017988 |
| 8. | Əliyev Mahir Mehdi | 1194013 |
| 9. | Əliyev Vəli Malik | 1202540 |
| 10. | Əliyev Abduləli Əlihüseyn | 1083826 |
| 11. | Ələkbərov Vüqar Əli | 1103762 |
| 12. | Əvəzzadə Elməddin Niyaz | 1207584 |
| 13. | Əhmədxanlı Nərmin Xanlar | 1106668 |
| 14. | Xankişiyev Röyal Xanlar | 1243598 |
| 15. | İsgəndərov Ramazan Musa | 1231351 |
| 16. | İbrahimova Sevinc Məmməd | 1151534 |
| 17. | Kərimov Rauf İskəndər | 1092440 |
| 18. | Kandal Sabahattin Yaser | 1164021 |
| 19. | Qasımov Tale Akif | 1216898 |
| 20. | Qasımov Bəxtiyar Əli | 1202542 |
| 21. | Qazıyeva Aygün Məmmədhəsən | 1187659 |
| 22. | Qafarov Məhəmməd Fətullah | 1178864 |
| 23. | Qələndərov Vaqif Məhərrəm | 1143833 |
| 24. | Quliyev Teymur Arif | 1222303 |
| 25. | Quliyeva Əsmər Məhərrəm | 1189118 |
| 26. | Məmmədov Tağı Əli | 1111019 |
| 27. | Məmmədov Elçin Vəli | 1109918 |
| 28. | Məmmədov Vasif Qabil | 1243673 |
| 29. | Məmmədov Dilqəm Telman | 1153411 |
| 30. | Musayeva Nəzmin Cavanşir | 1184022 |
| 31. | Nemətzadə Tale Əflatun | 1187615 |
| 32. | Namazəliyev Rauf Mətləb | 1245004 |
| 33. | Rəsulzadə Vüsal Əyyub | 1240672 |
| 34. | Rəsulov Teymuraz Namiq | 1106700 |
| 35. | Rüstəmov Nicat Cahid | 1213203 |
| 36. | Samadov İsmikhan Samad | 1247694 |
| 37. | Samin Sami Ulhak | 1162109 |
| 38. | Salmanov Araz İsax | 1157792 |
| 39. | Seyid Mircəfər Mirsəməd | 1157876 |
| 40. | Seyidli Mirfeyzulla Mirsəttar | 1247660 |
| 41. | Süleymanov Şamil Əhməd | 1212465 |
| 42. | Həsənov Nicat Bəxtiyar | 1202550 |

Bununla yanaşı, Səhiyyə Nazirliyinin müvafiq əmri ilə cərrahiyyə profili üzrə digər ixtisas sahibləri tərəfindən ali tibb təhsilinin tədris proqramlarına uyğun surətdə icrasına icazə verilən plastik cərrahiyyə əməliyyatlarının siyahısı da təsdiq edilib.

**Cərrahi ixtisaslar üzrə peşə hazırlığı keçmiş mütəxəssislər tərəfindən icrasına icazə verilən plastik əməliyyatların Xəstəliklərin Beynəlxalq Təsnifatının IX buraxılışı üzrə SİYAHISI**

**I. Ağız və üz-çənə cərrahları** (o cümlədən, «Ağız və üz-çənə cərrahiyyəsi» fənnini tədris edən, ali təhsil diplomunu 2010-cu ilə kimi (həmin vaxt da daxil olmaqla) alan, 5 il ali təhsil və 1 il internatura və ya 5 il ali təhsil və 2 il klinik ordinatura keçən həkim-stomatoloqlar) **tərəfindən də icra edilə biləcək plastik cərrahiyyə üzrə əməliyyatlar**

(Sadalanan əməliyyatlar törəmə səbəbindən aparılarsa, 2024-cü ilə qədər müvafiq təhsil almış və cərrahi profil üzrə fəaliyyət göstərən həkim-onkoloqlar tərəfindən də icra edilə bilər)

| | |
|---|---|
| | Laylı kranioektomiya |
| 02.06* | **Digər kranial osteoplastika**<br>Kəllə sümüyünün bərpası ƏGO[1]<br>Kəllə sümüyü sümük yamağının reviziyası |
| 18.7* | **Xarici qulağın digər plastik bərpa növləri** |
| 04.02 | **Üçlü sinirin ayrılması**<br>Retroqasserian nevrotomiya |
| 21.83* | **Total burun rekonstruksiyası**<br>Burnun rekonstruksiyası:<br>said plastikası;<br>alın plastikası. |
| 21.84* | **Rinoplastikanın reviziyası** |
| 21.85* | **Artırılma rinoplastikası**<br>Artırılma rinoplastikası:<br>qreftlə;<br>sintetik implantla. |
| 21.86* | **Məhdud rinoplastika**<br>Nasolabial yamaqlarla aparılan plastik bərpa;<br>Uc rinoplastikası. |
| 25.5 | **Dilin bərpası və qlossoplastika** |
| 27.54 | **“Cleft” dodağın bərpa edilməsi** |
| 27.55 | **Dodaq və ağıza tam dəri qreftinin yerləşdirilməsi** |
| 27.56 | **Dodaq və ağıza digər dəri qreft növünün yerləşdirilməsi** |
| 27.57 | **Dodaq və ağıza qreft ayaqcığı və yamağın yerləşdirilməsi** |
| 86.82* | **Üz qırışlarının əməliyyatları**<br>Üz dərisinin dartılması |
| *xüsusi hazırlıq keçmiş cərrahlar tərəfindən icra edilə bilər. | |

1 ƏGO-əks göstəriş olmadıqda.

**II. Otorinolarinqoloqlar tərəfindən də icra edilə biləcək plastik cərrahiyyə üzrə əməliyyatlar:**

(Sadalanan əməliyyatlar törəmə səbəbindən aparılarsa, 2024-cü ilə qədər müvafiq təhsil almış və cərrahi profil üzrə fəaliyyət göstərən həkim-onkoloqlar tərəfindən də icra edilə bilər.)

| | |
|---|---|
| 18.5 | **Qabaran qulağın cərrahi korreksiyası /Şəlpə qulaq**<br>“pinning”;<br>geriyə çəkmə. |
| 18.7 | **Xarici qulağın digər plastik bərpa növləri** |
| 18.71 | **Qulağın konstruksiyası:**<br>Mövcud olmayan qulağın protezlə əvəz edilməsi.<br>Rekonstruksiya:<br>qulaq<br>xarici qulaq |
| 18.72 | **Amputasiya olunmuş qulağın təkrar bərpası** |
| 18.79 | **Xarici qulağın digər plastik bərpa növləri:**<br>Otoplastika ƏGO<br>Postaurikulyar dəri qrefti<br>Kəsilmiş qulağın bərpası |
| 21.8 | **Burnun bərpası və plastik əməliyyatları** |
| 21.83 | **Total burun rekonstruksiyası** |
| 21.85 | **Artırılma rinoplastikası**<br>qreftlə<br>sintetik implantla |
| 21.86 | **Məhdud rinoplastika**<br>Nasolabial yamaqlarla aparılan plastik bərpa<br>Uc rinoplastikası |
| 21.87 | **Digər rinoplastika növləri** |
| 21.89 | **Burunun digər bərpa və plastik əməliyyatları**<br>Amputasiya olunmuş burunun təkrar birləşdirilməsi |
| 86.82* | **Üz qırışlarının əməliyyatları**<br>Üz dərisinin dartılması |
| *xüsusi hazırlıq keçmiş cərrahlar tərəfindən icra edilə bilər. | |

**III. Oftalmoloqlar tərəfindən də icra edilə biləcək plastik cərrahiyyə üzrə əməliyyatlar:**

| | |
|---|---|
| 08 | **Göz qapaqlarında aparılan əməliyyatlar**<br>qaşlarda aparılan əməliyyatlar |
| 08.3 | **Blefaroptoz və göz qapağının retraksiyasının bərpası** |
| 08.59 | **Digər**<br>Kantoplastika ƏGO<br>Epikantusun bərpası |
| 08.61 | **Göz qapağının dəri yamağı və ya qreft vasitəsilə rekonstruksiyası** |
| 08.64 | **Göz qapağının tarsokonyuktival yamaq vasitəsilə rekonstruksiyası**<br>Tarsokonyuktival yamağın əks tərəfdəki göz qapağından köçürülməsi |
| 08.69 | **Göz qapağının yamağı və ya qreftin digər növ rekonstruksiyaları** |
| 86.02 | **Dəri zədələnməsi və ya defektinə inyeksiya və ya tatu**<br>Dolğu materialın inyeksiyası<br>Dolğu materialın yerləşdirilməsi<br>Dərini dolğu materialı ilə piqmentlənməsi |

**IV. Ümumi cərrahlar tərəfindən də icra edilə biləcək plastik cərrahiyyə üzrə əməliyyatlar**

(Sadalanan əməliyyatlar törəmə səbəbindən aparılarsa, 2024-cü ilə qədər müvafiq təhsil almış və cərrahi profil üzrə fəaliyyət göstərən həkim-onkoloqlar tərəfindən də icra edilə bilər.)

| | |
|---|---|
| 85.24* | **Ektopik süd vəzinin toxumasının kəsiklə çıxarılması**<br>Əlavə gilənin kəsiklə çıxarılması |
| 85.32* | **İkitərəfli reduksiya mammoplastikası**<br>Amputasion mammoplastikası<br>Reduksiya mammoplastikası (ginekomastiya səbəbindən) |
| 85.50* | **Artırılma məqsədilə mammoplastikası, başqa cür müəyyən edilməyib** |
| 85.51* | **Auqmentasiya üçün süd vəzinə birtərəfli inyeksiya** |
| 85.52* | **Artırılma məqsədilə döz vəzinə ikitərəfli inyeksiya**<br>Auqmentasiya üçün süd vəzinə inyeksiya, başqa cür müəyyən edilməyib |
| 85.53* | **Süd vəzinə birtərəfli implant** |
| 85.54* | **Süd vəzinə ikitərəfli implant**<br>Döş vəzinin implantı, başqa cür müəyyən edilməyib |
| 85.55* | **Süd vəzisinə piy qrefti**<br>Daxil edilib: autoloji qreft üçün piyin ekstraksiyası<br>Autoloji piyin transplantasiyası və ya köçürülməsi<br>Süd vəzinə piy qrefti, başqa cür müəyyən edilməyib<br>Süd vəzinə piyin qrefti, doldurulmuş qreftlə birlikdə və ya onsuz<br>Mikro-piy qreftin köçürülməsi |
| 85.82* | **Süd vəzinə parçalanmış dəri qreftinin qoyulması** |
| 85.83* | **Süd vəzinə eninə tam dəri qreftinin qoyulması** |
| 85.6* | **Mastopeksiya** |
| 85.72* | **“Transverse rectus abdominis” əzələ-dəri (TRAM) yamağı, ayaqcıqda** |
| 85.79* | **Süd vəzinin digər total rekonstruksiya növləri** |
| 85.86* | **Gilənin transpozisiyası** |
| 85.87* | **Gilənin digər bərpa və ya rekonstruksiya növləri** |
| 86.69* | **Digər yerlərdə qoyulan digər dəri qreftləri** |
| 86.83* | **Ölçü kiçildilməsi üzrə plastik əməliyyat**<br>Adipoz toxumasının reduksiyası - abdominoplastika:<br>qarın divarı (pendulous)<br>əllər (“batwing”)<br>sağrı budlar (troxanterik lipomatoz) |
| * xüsusi hazırlıq keçmiş cərrahlar tərəfindən icra edilə bilər. | |







## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏSİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

### V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu

*Gen mühəndisliyi və biotexnologiya üzrə elmi şöbəninKök hüceyrə və regenerativ tibb bölməsi:*

Bölmə müdiri – 1.0
Elmi işçi – 1.0

*Ünvan: C.Cabbarlı küç., 35*
*Telefon: 594 – 69 – 31*

### Milli Onkologiya Mərkəzi

*Onkoginekologiya bölməsi:*

Rəhbər – 1.0

*Şüa terapiyası bölməsi:*

Rəhbər – 1.0
Aparıcı elmi işç – 1.0
Böyük elmi işçi – 1.0
Elmi işçi – 1.0

*Ünvan: H.Zərdabi küç., 79 b*
*Telefon: 537 – 08 – 11*

### K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu

*Pediatriya bölməsi*

Kiçik elmi işçi – 1.0

*Ünvan: Bəsti Bağırova küç., 17*
*Telefon: 436 – 93 – 26*

### Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu

Professor – 0.5 (Ümumi və plastik cərrahiyyə kafedrası)
Dosent – 1.0 (Mamalıq və ginekologiya kafedrası)

*Ünvan: Tbilisi pr., 3165-cı məh.*
*Telefon: 431 – 01 – 82*

## Etibarsız sayılır

Bayramova Sevda Musa qızının 1994-1995-ci illərdə Respublika Klinik Xəstəxanasının Nevrologiya şöbəsində «nevrologiya» üzrə ixtisaslaşma kursu keçməsi və imtahandan sonradan «nevrologiya» üzrə ixtisaslaşması haqqında ixtisaslaşma sənədi itdiyinə görə etibarsız sayılır.




## Mart ayında 19 aptekdə yoxlama aparılıb

**Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi bu ilin mart ayı ərzində 19 aptekdə yoxlama aparıb.**

Bu barədə Analitik Ekspertiza Mərkəzi məlumat yayıb.

Bildirilib ki, Bakı şəhəri üzrə 8, ölkənin digər şəhər və rayonlarında isə 11 aptek olmaqla, 17 aptekdə planlı, bir aptekdə plandankənar və bir aptekdə isə yoxlamadan kənar təftiş aparılıb. Yoxlamalar zamanı 7 aptekdə nöqsanlar aşkarlanıb. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 210.1, 452.1 və 452.3 maddələri üzrə protokollar tərtib edilib.

Baş redaktor:
N.MƏCİDOVA

Baş redaktorun müavini:
S.NƏBİYEVA

Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.

Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92

Ünvan:
Həsən bəy Zərdabi küç., 96.
3-cü mərtəbə, 6-cı otaq

Tel./faks: (012) 596-06-61

E-mail: tibbqazeti@mail.ru

*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmır.*